# KAMAL ABDULLANIN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Görkəmli alim və ədib, Xalq yazıçısı, Əməkdar elm xadimi, akademik, ictimai xadim, Birinci dərəcəli dövlət müşaviri Kamal Abdulla (Kamal Mehdi oğlu Abdullayev) 4 dekabr 1950-ci ildə Bakıda ziyalı ailəsində anadan olub.***

| | |
|---|---|
| **1968** | Bakıda 190 saylı orta məktəbi bitirib. |
| **1968-1973** | Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. |
| **1973-1976** | SSRİ Elmlər Akademiyasının Dilçilik İnstitutunun “Türk dilləri” şöbəsinin əyani aspirantı olub. |
| **1977** | Moskvada “Sintaktik paralelizm” (“Kitabi-Dədə Qorqud” dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyası müdafiə edib. |
| **1977-1984** | Azərbaycan SSR Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun “Türk dillərinin müqayisəli tədqiqi” şöbəsində kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb. |
| **1983** | Azərbaycan televiziyasında “Azərbaycan dili”, “Qoşma”, “Dəfinə”, “Sözün sirri” kimi aylıq və həftəlik ədəbi-bədii, elmi-publisistik verilişlərin müəllifi və aparıcısı olub. |
| **1983** | "Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri", ("Проблемы синтаксиса простого предложения в азербайджанском языке") kitabı nəşr olunub. |
| **1984** | Bakıda “Azərbaycan dili sintaksisinin nəzəri problemləri” adlı doktorluq dissertasiyası müdafiə edib. |
| **1984-1987** | Xarici Dillər İnstitutunun “Ümumi və Azərbaycan dilçiliyi” kafedrasının müdiri olub. |
| **1985** | "Müəllif – əsər – oxucu” kitabı nəşr edilib. |
| **1988-1990** | Azərbaycan Mədəniyyət Fondunun (Hazırda Azərbaycan Yaradıcılıq Fondu) sədrinin birinci müavini, 1990-ci ildən Fondun İdarə Heyətinin sədri. |
| **1990** | "Əvvəl – axır yazılanlar” adli kitabı çap olunub. |

| | |
|---|---|
| **1991** | "Gizli Dədə Qorqud"kitabı çap olunub. |
| **1993** | "Yolun əvvəli və axırı" kitabı nəşr olunub. |
| **1993-2000** | Yenidən Xarici Dillər İnstitutunun "Ümumi və Azərbaycan dilçiliyi" kafedrasının müdiri olub. |
| **1995** | "Gizli Dede Korkut" kitabı Bursada (Bursa, Ekin Basınevi), İstanbulda (İstanbul, Ötükən Basınevi, 1995) və yenə təkrar İstanbulda "Mitten yazıya ve ya Gizli Dede Korkut" (İstanbul, Ötüken Basınevi, 2013) ayrı-ayrılıqda türk dilinə çevrilərək çap olunub. |
| **1995** | "Unutmağa kimsə yox" adlı romanı çap olunub. |
| **1994–1995** | Bursa (Türkiyə Respublikası) Uludağ Universitetinin "Türk dili və ədəbiyyatı" bölümünün professoru olaraq fəaliyyət göstərib. |
| **1997** | "Ruh" kitabı nəşr olunub. |
| **1998** | "Qəribədi, deyilmi?!" şeir kitabı çap olunub. |
| **1999** | Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanının tədqiqindəki xidmətlərinə görə "Azərbaycan Respublikasının əməkdar elm xadimi" adı verilmişdir. |
| **1999** | "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" kitabı nəşr olunub. |
| **2000** | M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun rektoru təyin edilib. |
| **2000-2014** | Ölkə Prezidenti Heydər Əliyevin sərəncamı ilə yeni təşkil olunmuş Bakı Slavyan Universitetinin rektoru təyin edilib. |
| **2001** | "Gümüş dövrün sirləri" adlı tərcümə kitabçasının müəllifidir. |
| **2002** | "Kədərli seçmələr" adlı kitabında esseləri, şeirləri, hekayələri, tərcümələri, pyesləri toplanıb (Bakı, Mütərcim). |
| **2004** | "Yarımçıq əlyazma" romanı Bakıda ilk dəfə çap edilib. |

| | |
|---|---|
| **2005** | "Azərbaycanda rus dili" prof. İlyas Həmidovla birgə kitabı nəşr olunub. |
| | |
| **2005** | "Yarımçıq əlyazma" romanı "Le Manuscrıt inachevé" adı ilə Fransada (Paris, L’Harmattan) nəşr olunub. |
| | |
| **2005** | "Eksik el yazması" adı ilə romanı Türkiyədə çap olunub. |
| **2006** | "Tarixsiz gündəlik" povesti 2005-ci ildə Bakıda çap edilib. |
| **2006** | Rusiyada "Неполная рукопись" romanı (Moskva, Xroniker, 2006,) çap olunub. |
| **2006** | Sufi dərvişlərin həyatından bəhs edən "Sehrbazlar dərəsi" romanı nəşr olunub. |
| **2007** | “Tarixsiz gündəlik" povesti Heydər Əliyev Fondunun və Fondun rəhbəri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə "Əsərlər toplusu" adlı kitabda dərc edilib. |
| **2007** | Povest "Един към друг" adlı topluda "Дневник с бележки в полетата" adı ilə bolqar dilində çap edilmişdir. |
| **2007** | Rusiya Federasiyasının Puşkin medalı ilə təltif olunub. |
| **2007** | Azərbaycanda Humay mükafatı alıb. |
| **2007** | 525-ci qəzetin "İlin romanı" adlı mükafatına layiq görülüb. |
| **2007** | Monitorinq qrupunun "İlin ədəbiyyat adamı” adını alıb. |
| **2009** | Azərbaycanla Çexiya arasında münasibətlərin inkişafında mühüm roluna görə "Karl Kramej" medalı ilə təltif olunub. |
| **2009** | Polşa Respublikası prezidenti Lex Kaçinski tərəfindən təqdim edilən "Böyük Xaç" kavaler ordeninə layiq görülüb. |
| **2009** | Polşanın müsbət simasının formalaşmasındakı mühüm xidmətlərinə görə Polşa Respublikasının |

| | |
|---|---|
| | Xarici İşlər Nazirliyinin Xüsusi Diplomu ilə təltif olunub. |
| **2010** | "Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik" kitabı çap olunub. |
| **2010** | Dədə Qorqud Milli Fondunun "Dədə Qorqud Milli Mükafatı" "Azərbaycan dünyası" beynəlxalq jurnalının "Vətən övladı" qızıl medalı ilə təltif olunub. |
| **2010** | III Nəsimi Milli Ədəbiyyat Müsabiqəsində "Yarımçıq əlyazma" romanına görə "Son 10 ilin ədəbi əsəri" mükafatına layiq görülüb. |
| **2011** | Kamal Abdullanın "Unutmağa kimsə yox…" romanı Bakıda çap olunub. |
| **2011-2014** | Azərbaycan Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsində çalışıb. |
| **2012** | "Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər" dilçi alimlər ilə birlikdə çağ olunub. |
| **2014** | Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublika-sının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilib. |
| **2014** | Ölkə Prezidenti cənab İlham Əliyevin 19 noyabr tarixli Sərəncamı ilə yeni yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edilib. |
| **2014** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının ilk iclasında bu qurumun Himayəçilik Şurasının sədri seçilib. |
| **2014** | "Sirri-zəmanə" adlı hekayələr toplusu çap olunub. |
| **2015** | İranın Təbriz şəhərində Qafqaz Universitetləri Birliyinin (KUNİB) 5-ci konqresində "Elmi fəaliyyətə görə" mükafatına layiq görülüb. |
| **2015** | "Yarımçıq əlyazma" romanı İtaliyanın ən böyük fondlarından biri Rikardo Tanaturri Fondunun təsis etdiyi "Scanno" mükafatının ("Skanoprize") ədəbiyyat üzrə xüsusi prizi ilə təlrif olunub. |
| | |

| | |
|---|---|
| **2015** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunub. |
| **2015** | Prof. E.Nəcəfov ilə həmmüəlliflikdə "Multi-kulturalizm" fənni üzrə "Multikulturalizmə giriş" (Bakalavr səviyyəsi üçün) və "Azərbaycan multikulturalizmi" (Magistr səviyyəsi üçün) tədris proqramları hazırlamışdır. |
| **2015** | "ADA" Universitetdə "Azərbaycanşünaslıq" fənnini tədris etmişdir. |
| **2016** | AMEA-nın Rəyasət Heyətinin qərarı ilə AMEA-nın "Türkologiya" jurnalının baş redaktoru təyin edilib. |
| **2016** | Rusiyanın məşhur "Xydojestvennaya literatura" nəşriyyatı tərəfindən çap edilən "Platon, deyəsən, xəstələnib…" ("Платон, кажется, заболел…") hekayələr kitabı Rusiyada ədəbiyyat üzrə təqdim olunan yüksək mükafata — "Qızıl Delviq"ə layiq görülüb. |
| **2017** | Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Dillər Universitetinə rektor vəzifəsinə təyin edilib. |
| **2017** | Şərqi Avropada ilin ən bacarıqlı şəxslərini seçən Regional Agentlik və onun nəşr etdiyi "Euromanager" jurnalı tərəfindən "Müasir dünyanın dini, irqi və etnik ayrı-seçkilik kimi problemlərindən əziyyət çəkən Avropa regionunda multikulturalizm ənənələrinin inkişaf etdirilməsi sahəsində xidmətlərinə görə" mükafatına layiq görülüb. |
| **2017** | "Edam vaxtını dəyişmək olmaz" hekayələr kitabı nəşr olunub. |
| | |
| **2018-2019** | Kamal Abdulla tədris ilinin ən yaxşı rektoru" sosial tələbə sorğusunda qalib olub. |
| **2019** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Xalq yazıçısı" fəxri adına layiq görülüb. |

| | |
|---|---|
| **2019** | Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif edilib. |
| **2019** | Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin Sərəncamı ilə "Azərbaycan diplomatik xidmət orqanları – 100 illiyi (1919–2019)" yubiley medalı ilə təltif edilib. |
| **2019** | Macarıstan Prezidenti Yanoş Aderin tərəfindən Macarıstan və Azərbaycanın elmi-mədəni əlaqələrinin dərinləşməsindəki roluna görə "Zabit Xaçı" ali xidmət ordeni ilə təltif edilib. |
| **2020** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib. |
| **2021, 2022** | Türk Ədəbiyyatı Vəqfinin təsis etdiyi "Yaşayan Dədə Qorqud" mükafatı təqdim olunub. |
| **2022** | Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Şərəf" medalı ilə mükafatlandırıb. |
| **2024** | Türkiyənin Mərmərə Universitetinin professoru seçilib. |